Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

263) Skarlatina törədicisi toksininin aşağıdakılardan hansına tropluğu yoxdur?

A) Sinir - damar sisteminə
B) Limfatik sistemə
C) Əzələ toxumasına
D) Ürək - damar sisteminə
E) Vegetativ - endokrin sistemə

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

264) Skarlatina üçün aşağıdakı hansı simptomların olması səciyyəvi deyil?

A) Kəskin başlanğıc, hərarət, intoksikasiya
B) Titrətmə, baş ağrıları, boğazda ağrı, tonzillit
C) Səpkilər söndükdən sonra dərinin qabıqlanması
D) Mərhələli səpmə
E) Təbii büküşlərdə sıxlaşan dərinin hiperemiyalı fonunda nöqtəvari səpkilər

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

265) Göy - öskürəyin patogenezinin əsas həlqəsinə nə daxil deyil?

A) Törədici yuxarı tənəffüs yollarının selikli qişasına düşür
B) Tənəffüs yollarının reseptorlarının qıcıqlanması öskürəyin baş verməsini və mərkəzi sinir sistemdə (MSS) qıcıqlanma ocağının əmələ gəlməsini şərtləndirir
C) Göy - öskürək çöpləri tərəfindən ifraz olunan toksin mərkəzi sinir sisteminə təsir edir
D) Göy - öskürək çöpləri tərəfindən ifraz olunan toksin daim tənəffüs yollarının reseptor aparatına təsir edir
E) Qeyri - spesifik qıcıqlandırıcılar dominant qıcıqlanma ocağına əlavə təsir göstərir

SINAQ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: N. N. Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh. , В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

266) Yetkin şəxslərdə burun - difteriyası daha çox hansı formada rast gənir?

A) Fleqmonoz
B) Toksiki
C) Kataral, kataral - xoralı
D) Yayılmış
E) Pərdəli

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

267) Difteriyada sinir sisteminin zədələnməsi zamanı müşahidə olunmur?

A) Ətraf əzələlərinin periferik nevrit şəklində zədələnməsi
B) Tənəffüs əzələlərinin paraliçi və ya parezi
C) Sinir toxumasının mielinsizləşməsi (demielinizasiya)
D) İnfeksion - toksik ensefalopatiya
E) Yumşaq damağın parez və ya paraliçi, bulbar paraliç

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

268) Uşaqlarda meninqokokk meningitinin ən çox təsadüf olunan qalıq əlamətləri:

A) Ürək - damar pozğunluqları
B) Astenik sindrom
C) Hormonal pozğunluqlar
D) Kəllə - beyin sinirlərinin parezi
E) Hidrosefaliya

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

269) Uşaqlarda xəstəxana daxili respirator virus infeksiyalarının profilaktikası məqsədilə aşağıdakılardan hansı istifadə olunmalıdır?
A) Qrip əleyhinə immunoqlobulin
B) Remamtadin
C) Virazol
D) Leykositar interferon

SİTİRAZ ÖDƏNİŞSİZ İSTİFADƏ İÇÜN

E) Reaferon

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998 - 808 стр

270) Uşaqlarda inağın ən çox rast gələn səbəbi hansıdır?

A) Adenovirus
B) Streptokok
C) Qrip virusu
D) Paraqrip virusu
E) Mikoplazma

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

271) Erkən yaşlı uşaqlarda paraqrip zamanı inağın patogenetik mexanizmi aşağıdakı hansı halda düzgün göstərilib.

A) Qırtlaq əzələlərinin innervasiya pozğunluğu
B) Qırtlaqda infiltrativ proses
C) Seliyin ifrat eksudasiyası
D) Qırtlaq əzələlərinin spazmı
E) Səs telləri altı nahiyənin ödemi

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

272) Uşaqlarda qripoz inaq zamanı baş verən kəskin afoniyanın səbəbi nədir?
A) Səs yarığının spazmı
B) Səs telləri altı nahiyyənin ödemi
C) Qırtlaq sinirinin parezi
D) Səs yarığında bəlğəmin toplanması
E) Qırtlaq selikli qışasına qansızmalar

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

273) Uşaqlarda KRX zamanı üçüncü dərəcəli inağın əlamətlərinə aşağıdakilardan hansı aid deyi?

A) İfadəli taxikardiya, ürək tonlarının karlaşması
B) Qıcolmalar
C) Tormozlanma ilə əvəz olunan kəskin oyanıqlıq
D) Dərinin ifadəli solğunluğu və sianozu
E) Güclü əzələ ağrıları

SINAQ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

274) Uşaqlarda kəskin respirator virus infeksiyaları zamanı üçüncü dərəcəli inağ üçün aşağıdakılardan hansının olması səciyyəvi deyil?

A) Bradikardiya
B) Nəfəs alma zamanı ifadəli stenotik tənəffüs, qabırğaarası sahələrin batması ilə
C) «Nəbz dalğasının itməsi» simptomu
D) Ağciyərlərin auskultasiyası zamanı tənəffüsün zəifləməsi
E) Boyun əzələlərinin gərginliyi

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР МЕДИЦИНА 1998

275) Hansı halda uşaqlarda KRX zəminində baş vermiş inağ zamanı hormonal terapiyanın təyini göstərişdir?

A) Əsasən səs telləri altı nahiyyənin ödemi ilə müşayiət olunan II və III dərəcəli inağ
B) I dərəcəli inağ
C) III və IV dərəcəli inağ
D) İrinli eksudatla III dərəcəli inağ
E) Allergiya təzahürləri olan uşaqlarda I dərəcəli inağ

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

276) Aşağıdakılardan hansı uşaqların həyatının birinci yarım ilində bronxiolitə daha çox səbəb olur?

A) Stafilokok
B) Mikoplazma
C) Paraqrip virusu
D) Respirator - sinsitial virus
E) Pnevmosistlər

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

277) Uşaqlarda bronxiolit üçün səciyyəvi deyil:

A) Toksikoz
B) Ağciyərlərin rentgenoqramında damar dolğunluğu
C) Ağciyərlərdə diffuz xırda qabarcıqlı xırıltılar
D) Ekspirator təngnəfəslik

SİNOQAZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

E) Dərinin solğunluğu, sianoz, taxikardiya

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

278) Aşağıda göstərilən törədicilərdən hansı daha çox uşaqlarda destruktiv pnevmoniyanı yaradır?
A) Mikoplazma
B) Pnevmokok
C) Qram mənfi bakteriyalar
D) Stafilokok
E) Legionellalar

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

279) Xəstəxanadaxili yoluxma zamanı uşaqlarda pnevmoniyanın ən çox rast gələn törədicisi hansıdır?

A) Hemofil çöplər
B) Streptokok
C) Pnevmokok
D) Mikoplazma
E) Göy - irin çöpləri

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

280) Aşağıdakılaran hansı skarlatinanın əsas əlamətlərinə aid deyil?
A) Hərarət, intoksikasiya
B) Dərinin təbii büküşlərində səpkilərin sıxlaşması
C) Artrit
D) Kəskin tonzillit, çənəaltı limfadenit
E) Hiperemiya fonunda qovuşan nöqtəvari səpkilər

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

281) Aşağıdakilardan hansı infeksion mononukleoz üçün səciyyəvi əlamət deyil?

A) İnfeksion - toksik ensefalopatiya
B) Arxa - boyun limfa düyünləri qrupunun əsasən böyüməsi ilə limfadenopatiya
C) Atipik mononuklearların olması
D) Angina
E) Hepatosplenomeqaliya

SUSLAZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

282) Infeksion mononukleoz diaqnozunun qoyulması üçün hansı laborator müayinədən istifadə olunmur? (İFA - immun - fluoressensiya analizi)

A) Askoli reaksiyası
B) Ürək antigeninə summar (İFA)
C) PZR
D) Paul - Bunnel reaksiyası
E) Kapsid antigeninə İgM və İgİ (İFA)

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

283) Uşaqlarda göy öskürəyin ağır formasının müalicəsində aşağıdakılardan hansı istifadə olunmur?

A) Antibiotiklər
B) Qlükokortikoidlər
C) Oksigenoterapiya
D) Tənəffüs analeptikləri
E) Spesifik immunoqlobulin

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

284) Məktəbyaşlı uşaqlarda qızılcanın ən tipik fəsadına aşağıdakılardan hansı aiddir?
A) Haymorit
B) İrinli meningit
C) Bronxit
D) Meninqoensefalit
E) Otit

Ədəbiyyat: В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

285) Leptospiroz zamanı etiotrop terapiya kimi çox vaxt istifadə olunur?

A) Vankomisin
B) Ampisillin
C) Levomisetin
D) Gentamisin
E) Penisillin

SUSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, Е. П. Шувалова Инфекционные болезни. М. , Медицина, 1990 – 558 с

286) Səpkili yatalaq zamanı əlverişsiz proqnostik əlamətlərə hansı daxil deyil?

A) Arterial təzyiqin azalması
B) Meningeal sindrom
C) Leykositoz
D) Çoxlu miqdarda rozeolyoz səpkilər
E) Statik tremor

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007. Е. П. Шувалова Инфекционные болезни. М. , Медицина, 1990 – 558 с

287) İrinli bakterial meningitlərin törədiçilərinə aid olmayan hansıdır?
A) Göy - yaşıl irin çöpləri, protey
B) Listeriyalar
C) Streptokokk, Stafilokok
D) Klebsiyella, haemofilus
E) Meninqokokk, pnevmokokk

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

288) İrinli meningitlərin patogenezinin əsas həlqələri hansılardır?

A) Likvorodinamik - hipertenzion tipli
B) Yalnız toksiki
C) Septiki və hipertenzion
D) Septiki, toksiki və allergik
E) Yalnız infeksion - allergik

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

289) Aşağıdakılardan hansı pnevmokokk meningiti üçün səciyyəvi deyil?

A) Meningoensefalit əlamətlərinin erkən inkişafı
B) Kəskin başlanğıç
C) Likvorun irinli xarakterli olması
D) Yüksək letallıq
E) Likvorun seroz xarakterli olması

SUMAZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

290) Aşağıdakilardan hansı influenza meningiti üçün səciyyəvi deyil?

A) Törədicisi - qram mənfi influenzae haemofilusdur
B) Likvor irinli olub tərkibində çoxlu miqdarda törədici aşkarlanır
C) Xəstəlik yüngül formada keçir
D) Çox vaxt xəstəliyin sonluğunda produktiv leptopaximeningit, ependimatit müşahidə olunur
E) Xəstəlik ən çox 2 aylıq - 3 yaşındakı uşaqlarda rast gəlir

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

291) Aşağıdakilardan hansı seroz bakterial meninqitlərin törədiçisi deyil?

A) Brusella
B) Vərəm mikobakteriyaları
C) Listeriyalar
D) Leptospira
E) Enteroviruslar

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

292) İrinli meningitlərdə likvorda seroz dəyişikliklər rast gəlirmi?

A) Virus - bakterial etiologiyalı meningitlərdə
B) Rast gəlmir
C) Müalicəsiz hallarda
D) Prosesin başlanğıc mərhələsi üçün səciyyəvidir
E) Meningokokk, pnevmokokk etiologiyalı meningitlərdə

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

293) Birincili seroz virus meningitlərə hansı aid deyil?

A) Vərəm meningiti
B) Kəskin limfositar xoriomeningit
C) Herpetik meningit

SİTİ KAZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) Enterovirus meningiti
E) Parotit meningiti

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

294) Limfositar xoriomeningit üçün hansı səciyyəvi deyil?

A) Differensial diaqnoz poliomielit ilə aparılmalıdır
B) Tez - tez meningoensefalitin inkişafı ilə
C) Bəzi hallarda meningomielit formada keçir
D) Çox vaxt orta ağır formada keçir
E) Likvorda polimorf munüvəli hüceyrələr erkən tapılır

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

295) Aşağıdakilardan hansı enterovirus meningitləri üçün səciyyəvi deyil?

A) Likvorun irinli olması
B) Yay - payız fasilliyi
C) Bəzi hallarda makulopapulyoz səpkilər
D) 2 - 3 günlük qızdırma
E) Xəstəliyin kəskin başlanğıcı

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

296) Qızılca ensefaliti üçün aşağıdakılardan hansı səciyyəvi deyil?

A) Ətrafların iflici
B) Görmə və eşitmə sinirlərinin zədələnməsi
C) Yuxuya meyillik, tormozlanmanın olması
D) Xəstəliyin ilk günlərində inkişaf etməsi
E) Qarın reflekslərinin itməsi

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

297) Aşağıdakılardan hansı məxmərəyin ensefalitik formasına xas deyil?

A) Hemiparezlər və ocaqlı simptomlar müşayiət olunur

YALNIZ AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

B) Gedişi ağırdır, letallıq yüksəkdir
C) Nadir hallarda rast gəlinir
D) Ensefalit əlamətləri səpkilərdən sonra, ya da ekzantemanın fonunda əmələ gəlir
E) Likvor bulanıq olur, neytrofil pleositoz müşahidə olunur

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

298) Poliomielit zamanı baş verən patofizioloji dəyişikliklərə nə aid deyil?

A) Mərkəzi sinir sisteminə virusun daxil olmasının qarşısını humoral əkscisimciklər alır
B) Patoloji proses əsas qanqleoz hüceyrələrdə və onurğa beynin ön buynuz hüceyrələrində baş verir
C) Virusunun qana daxil olması nəticəsində mərkəzi sinir sistemi patoloji prosesə qoşulur
D) Nəcis, alimentar (qida) yolu, çirkli əllər ilə yoluxma baş verir
E) Bağırsaqda virusun replikasiyası baş verir

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

299) Poliomielitin preparalitik mərhələsi üçün aşagıdakı hansı simptom səciyyəvidir?

A) Meningeal sindrom
B) Əzginlik, yuxuya meyillik
C) Onurğa sütünunda və ətraflarda ağrılar
D) Qıcolmalar
E) Qızdırmanın yüksəlməsi

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

300) Poliomielitin preparalitik mərhələsi üçün aşağıdakılardan hansının olması səciyyəvi deyil?

A) Sinirlər boyu ağrıların olması
B) Xəstənin vəziyyətinin yaxşılaşması, intoksikasiyanın azalması
C) Meningial simptomlar, hiperesteziyanın olması
D) 3 - 6 gün davam etməsi
E) Süst ifliclərin olması

SUMAZ ƏDƏNIŞSIZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

301) Poliomielit virusu hansı substratda tapılmır?

A) Nəcisdə
B) Burun - udlaqdan götürülmüş yaxmada
C) Sidikdə
D) Meyid materiallarında
E) Qanda

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

302) Ağız - udlağın toksik difteriyasının əsas simptomlarına nə aid deyil?

A) Ağız - udlaqda yayılmış ərplər, udma zamanı ağrılar
B) Stenotik tənəffüs
C) Badamcıqların və ağız - udlağın ödemi
D) Yüksək qızdırma, adinamiya, qusma, anoreksiya
E) Boyun yumşaq toxumasının ödemi

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

303) Yenidoğulmuş uşaqlarda listerioz üçün aşağıdakı formalardan hansı səciyyəvi deyil?

A) Sepsis
B) Enterit, enterokolit
C) Dermatit
D) Pnevmoniya
E) Simptomsuz gəzdirici

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

304) Kəskin başlanğıç, yüksəlmiş qızdırma, stenotik tənəffüs, səsin dəyişilməsi, kobud öskürmə aşağıdakılardan hansı üçün səciyyəvidir?

A) Difteriya inağına
B) Qırtlağın yad cisminə

SIOK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

C) Anginaya
D) Epiqlotitə
E) KRVİ, inağa

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

305) İldırımvari meninqokoksemiya üçün aşağıdakılardan hansı səciyyəvi deyil?

A) Aşağı enməyə meyillik olan qızdırma
B) Oliqoanuriya
C) Hemodinamik və tənəffüs pozğunluqlarının proqressivləşməsi
D) Metabolik asidoz
E) II °- III° - eksikoz

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

306) Məxmərək zamanı səpkilər harada lokalizasiya edir?

A) Boyunda
B) Başın tüklü hissəsində, üzdə, ətrafların distal hissələrində
C) Üzdə, gövdənin yan səthlərində, ətrafların bükücü səthlərində
D) Üzdə, beldə, ətrafların açıcı səthlərində, oynaqlar nahiyəsində, sarğıda
E) Gövdədə, ovuclarda, ayaqların altında

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

307) Ependimatit sindromu ilə müşayət olunan meningit üçün aşağıdakılardan hansı səciyyəvi deyil?

A) Likvorda zülal - hüceyrə dissosiasiyasının artması
B) Şüurun uzunmüddətli pozulması (sopor, koma)
C) Həmişə yüksək qızdırma
D) Qıcolmalar
E) Yüksək əzələ tonusu

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

PULSUZ AZ ÖDƏNİŞİZ İSTİFADƏ ÜÇÜN

308) KRVİ - lı xəstədə bronxoobstruksiya ilə müşayiət olunan tənəffüs çatışmazlığının müalicəsində nə istifadə edilmir?
A) Oksigen terapiyası
B) Mukolitik preparatlar ilə bronxial drenajın yaxşılaşdırılması və bronxolitik preparatlar ilə təkrar inhalyasiyalar
C) Massiv infuzion terapiya
D) Qlükokortikoidlərin parenteral yeridilməsi
E) Bronxolitik preparatlar

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

309) Aşağıdakılardan hansında skarlatinaya bənzər səpkilər ola bilməz?

A) İnfeksion mononukleozda
B) Məxmərəkdə
C) Medikamentoz allergozda
D) Psevdovərəmdə
E) Stafilokok infeksiyasında

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

310) KRVİ - də bronxobstruktiv sindromun mualicəsində böyük əhəmiyyət daşımır:

A) Mukolitik preparatlar
B) İnhalyasiya proseduarları
C) Hiposensibilizə edici preparatlar
D) Bronxolitik preparatlar
E) Antibiotiklər

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

311) Pnevmosistoz üçün səciyyəvi deyil:

A) Göy öskürəyə bənzər öskürmə, köpüklü bəlğəmlə
B) Xəstəliyin başlanğıcında taxipnoe və ya xəstəliyin qızğın dövründə kəskin tənqnəfəslik
C) Qızdırmanın olmaması və ya subfebril hərarət
D) Rentgenoqrammda iki tərəfli infiltrasiya və bulud şəklində kölgələr
E) Yaş plevrit

SDSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

312) Göbələk məişəli meninqitlər üçün səciyyəvi deyil:

A) Likvorun davamlı 3 - rəqəmli sitozu
B) Yarım kəskin başlanğıc, subfebrilitet ilə
C) Proqressivləşən hidrosefaliya
D) Süst gedişat
E) Kəskin başlanğıc, hipertermiya ilə

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

313) Anadangəlmə sitomegalovirus infeksiyası üçün səciyyəvi deyil:

A) Splenomeqaliya
B) Hipotermiya
C) Petexial səpkilər
D) Hepatomeqaliya
E) Sarılıq

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

314) Qızılcaya qarşı vaksinasiyanın yan təsirlərinə aid deyil:

A) Toksiki reaksiya (hipertermiya, intoksikasiya)
B) Allergik reaksiya (səpki, Kvinke ödemi, artralgiya)
C) Diareya sindromu, ifadəli eksikoz ilə
D) Ensefalit
E) Ensefalitik (qıcolma) reaksiya

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

315) Toksiki difteriyanın ağırlığını nə müəyyən etmir?

A) Boğazda ağrının olmaması
B) Ağız - udlaqda ərpin səciyyəsi
C) Boyun yumşaq toxumasının odeminin baş vermə müddəti və yayılması dərəcəsi

SİFARİŞ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) Qızdırmanın müddəti
E) İntoksikasiyanın yüksəlməsinin vaxtı

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

316) Silinmiş mitiqrasiya olan (rudimentar) qızılcaya səciyyəvidir:

A) Səpkilərin olmaması
B) Kliniki təzahürlərin yüngül olması
C) İfadəli konyunktivit, öskürək, çoxlu miqdarda səpkilər
D) İnkubasiya dövrünün qısalması
E) Fəsadların ehtimallığı (pnevmoniya, otit)

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

317) Bronxiolitin mualicəsi üçün tövsiyyə olunmur:

A) Uzunmüddətli buxar inhalyasiyası
B) Ultrasəs inhalyasiya, oksigen terapiyası
C) Hormonlar
D) İnfuzion terapiya
E) Mikrosirkulyasiyanı yaxşılaşdıran prepartalar

Ədəbiyyat: Ədəbiyyat N. N. Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh. , В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

318) Respirator mikoplazmoza səciyyəvi deyil:

A) Davamlı bronxoobstruksiya
B) Limfadenopatiya
C) Az ifadəli intoksikasiya
D) Uzun müddətli yüksək qızdırma
E) Davamlı az produktiv öskürək

Ədəbiyyat: N. N. Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh. , В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

319) Qızılcada dəqiq diaqnoz üçün hansı kliniki simptom əsas götürülür?

A) Qızılca ekzanteması

SUMQAYIT ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

B) Belskiy – Koplik səpkiləri
C) İşıqdan qorxma
D) Qızdırmanın yüksəlməsi
E) Enantema

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

320) Qızılcada ekzantemaya hansı əlamət səciyyəvidir?

A) Hemorragik komponentin olması
B) Yalançı polimorfizmin olması
C) Səpkilərin üzdə, ovuclarda lokallaşması
D) Səpgilərin etaplığı
E) Hiperemiya fonunda olması

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

321) Qızılca ilə tamas zamanı uşaqların təcrid edilmə müddəti neçə gün olmalıdır?

A) 8 - 17 günə qədər
B) 4 - 7 günə qədər
C) 18 - 21 günə qədər
D) 21 - 30 günə qədər
E) 1 - 3 günə qədər

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

322) Qızılca ilə tamas olan uşaqlarda profilaktik immunoglobulin vurulan zaman tədric olunma müddəti neçə gün olmalıdır?

A) 30 gün
B) 21 - 28 günə qədər
C) 1 - 7 günə qədər
D) 28 - 30 günə qədər
E) 8 - 21 günə qədər

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

SİSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

323) Aşağıdakılardan hansı məxmərəkdə ən çox rast gələn fəsad sayılır?

A) Enterokolitlər
B) Ensefalitlər
C) Pnevmoniyalar
D) Meningitlər
E) Artritlər

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

324) Uşaqlarda məxmərəyin erkən tipik simptomu hansıdır?

A) Arxa boyun limfa vəzilərin böyüməsi
B) Qaraciyərin və dalağın böyüməsi
C) Ekzantema
D) Enantema
E) Belskiy - Koplik səpkiləri

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

325) Erkən yaşlı uşaqlarda göy öskürəyin əsas kliniki simptomu hansıdır?

A) Nəm öskürmə
B) "Bitonal" öskürmə
C) Reprizalı öskürmə
D) Köbut öskürmə
E) Tez - tez quru öskürmə

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

326) Uşaqlarda göy öskürəyə hansı hematoloji dəyişiklər səciyyəvidir?

A) Leykositoz, neytrofillərin sola meyilliyi
B) Monositoz
C) Leykopeniya
D) Leykositoz, limfositoz
E) Atipik mononuklearlar

SINAQ AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

327) Uşaqlarda hipertoksik ağız udlaq toksiki difteriya zamanı ölümün səbəbi aşağıdakilardan hansıdır?
A) Böyrəküstü vəzin çatışmazlığı
B) DDL sindrom
C) İnfeksion - toksiki şok
D) Kardiogen şok
E) Hipovolemik şok

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

328) Aşağıdakılardan hansı seroz meningiti törədir?

A) Epidemik parotit virusu
B) Kandida
C) Pnevmokokk
D) Meningokokk
E) Hemofilus influensa

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА1998

Helmintozlar və protozoozlar

329) Toksoplazmozun törədicisi aşağıdakı hansı qrupa daxildir?
A) təkhüceyrəli parazit
B) bakteriya
C) helmint
D) prionlar
E) virus

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

330) Xroniki toksoplazmozun müalicəsində aşağıdakılardan hansı daha effektivdir?
A) vitaminoterapiya
B) toksoplazminlə spesifik immunoterapiya

İSTİFADƏ ÜÇÜN

C) delagil, tetrasiklin
D) sulfadimezin
E) kortikosteroidlər

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

331) Teniarinxozun ən xarakter əlaməti nədir?
A) qarında ağrı
B) proqlottidlərin (buğumların) aktiv surətdə anal dəlikdən xaric olması
C) hərarət
D) nevroloji əlamətlər
E) defekasiyanın artması

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

332) Exinokokkoz invaziyasının 50%-dən çoxunu hansı orqanın zədələnməsi təşkil edir?
A) beyin toxumasının
B) qaraciyərin
C) ağciyəri
D) dalağın
E) əzələ toxumasının

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

333) Exinokokkozun terapiyası hansı üsulla aparılır?
A) konservativ
B) immunokorreksiya
C) cərrahi
D) hormonokorreksiya
E) desensibilizəedici terapiya

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

334) Tükbaş qurd nə ilə qidalanır?
A) Selikli qişa eroziyası ilə
B) Qan hüceyrələri ilə
C) Mədənin selikli qişası ilə
D) Qida qalıqları ilə
E) Parazit metabolitləri ilə

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

335) Aşağıdakılardan hansı trixinellyozun ilk əlamətidir?

SUSLA AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

A) ürəkbulanma
B) göz qapaqlarının və sifətin ödemi
C) yüksək hərarət
D) qanda yüksək eozinofiliya
E) əzələlərdə ağrı

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

336) Kəskin bagırsaq amobiazının qəti diaqnozu üçün nəcisdən hansı tapılmalıdır?
A) vegetativ forma
B) toxuma forması
C) toxuma ve sista forması
D) boşluq forması
E) sista forması

Ədəbiyyat: N.N.Əliyev.İnfektologiya,Bakı ,2007.

337) Strongiloidozun törədiciləri, mədə-bağırsaq traktının hansı şöbələrinə yumurta qoyurlar?
A) yoğun bağırsağın sagital şöbəsi
B) onikibarmaq bağırsaq və nazik bağırsağın yuxarı şöbəsi
C) nazik bağırsağın aşağıı şöbəsi
D) yoğun bağırsağın distal şöbəsi
E) kor bağırsaq

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

338) Teniozu teniarinxozdan fərqləndirən əsas əlamət hansıdır?
A) hərarət
B) eozinofiliya
C) proqlottidlərin (buğumların) aktiv xaric olmaması
D) mərkəzi sinir sisteminin zədələnməsi
E) qarında ağrılar

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шлоссберг Д., Шульман И. Дифференциальная диагностика инфекционных болезней. С.-Пб., 1999 – 306 с.

339) Qaraciyərin amöblü abses üçün hansı xarakterik deyil?
A) Qaraciyər nahiyəsinin ağrılı olması
B) Diafraqmanın sağ kümbəzinin yüksəkdə durması
C) Səpkilər
D) Hərarət
E) Leykositoz

TUSKAZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

340) Xroniki bağırsaq amöbiazının xarakterik əlaməti hansıdır?
A) dəridə ekzantema
B) dildə ağrı və sancma hissi
C) qarında tutma şəkilli kəsici ağrılar
D) sidiyin tündləşməsi
E) apatiya

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

341) Lyamblyozun klinik şəkli üçün hansı xarakterik deyil?
A) Zəiflik, oyanıqlıq
B) Ürəkbulanması, mədə qıcqırması
C) Təkrari qusmalar
D) Qarında ağrılar
E) Diareya

Ədəbiyyat: D.V.Uçaykin «İnfeküionnıe bolezni», «Mediüina», Moskva, 1994
N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

342) Lyamblyozun müalicəsi üçün nə istifadə olunmur?
A) Furazolidon
B) Xlorixin
C) Ranidazol
D) Tetrasiklin
E) Metronidazol

Ədəbiyyat: D.V.Uçaykin «İnfeküionnıe bolezni», «Mediüina», Moskva, 1994
N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

343) Xəstənin ultrasəslə müayinəsi zamanı qara ciyərin sağ payında 3,5 sm ölçüdə dəqiq konturları olan dairəvi formalı törəmə aşkar edilmişdir. Göstərilən helmintozlardan ən çox uyğun gələni hansıdır?
A) Exinokokkoz
B) Fasilyoz
C) Bağırsaq sitosomozu
D) Trixosefalyoz
E) Opistorxoz

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

344) Hərarət, mialgiya, sifətin ödemi, eozinofiliya əlamətləri aşağıdakılardan hansı üçün patoqnomikdir?
A) Fasilyoz üçün

MUSAZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

B) Exinokokkoz üçün
C) Stronqiloidoz üçün
D) Trixinelyoz üçün
E) Trixosefalyoz üçün

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

345) Askaridozda hemoqramma və EÇS vəziyyəti necə olur?
A) leykopeniya
B) eozinofiliya, leykositoz, EÇS artması
C) trombositopeniya
D) eozinofiliya olmur
E) EÇS azalması

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шлоссберг Д., Шульман И. Дифференциальная диагностика инфекционных болезней. С.-Пб., 1999 – 306 с.

346) Trixosefalyoz zamanı hərarət necə olur?
A) subfebril
B) 37-37,50C
C) vunderlix tipli
D) 38-40ºC
E) olmur

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

347) Trixinelyoz zamanı qaraciyər, dalaqda hansı dəyişikliklər olur?
A) hepatomeqaliya
B) dəyişiklik olmur
C) splenomeqaliya
D) xarakterik deyil
E) hepatit

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

348) Ankilostomidoz zamanı tənəffüs yollarının hansı tip zədələnmə simptomları daha çox rast gəlinir?
A) bəlğəmdə qan
B) vazomotor rinit
C) bronxit, laringit
D) eksudativ plevrit
E) quru plevrit

SHSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

349) Ankilostomidozun xronik mərhələsində xəstəliyin əsas təzahürlərinin meydana çıxma səbəbi nədir?
A) Helmintlərin 12 barmaq və nazik bağırsaqda parazitlik etməsi
B) Helmintlərin aralıq, tənasül orqanlarına yayılması
C) Qəbizliyin olması
D) Helmintlərin düz bağırsaqda parazitlik etməsi
E) Helmintlərin ağciyərlərə düşməsi

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

350) Enterobioz zamanı hərarət necə olur?
A) 40 - 41°C
B) 37 - 38°C
C) 38 - 39°C
D) 39 - 40 °C
E) 35 - 36 °C

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

351) Strongiloidozun klinikasının kəskin fazası üçün xarakter simptomlar hansılardır?
A) pnevmoniya
B) otit
C) meningit
D) nefrit
E) haymorit

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

352) Strongiloidozun müalicəsində hansı preparat təyin edilir?
A) helmizol
B) zoviraks
C) levomisetin
D) immunomaks
E) omeprozol

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

353) Enterobiozda aparıcı simptom hansı hesab olunur?
A) Qusma və ürək bulanma
B) Subfebril hərarət
C) Qarında ağrılar

SINAQ AMİ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) Duru nəcis
E) Analətrafı nahiyyədə qaşınma

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

354) Aşağıdakı hallardan hansında B12 defisitli anemiya inkişaf edə bilər?
A) Trixinelyoz
B) Angilostomidoz
C) Difillobotrioz
D) Askaridoz
E) Teniarinxoz

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шлоссберг Д., Шульман И. Дифференциальная диагностика инфекционных болезней. С.-Пб., 1999 – 306 с.

355) Hansı halda dəmir preparatları patogenetik vasitə kimi təyin olunur?
A) Difillobotriozda
B) Trixosefalyozda
C) Trixinelyozda
D) Askaridozda
E) Angilostomidozda

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

356) Xəstədə anusdan lentvari qurdun buğumlarının aktiv xaric olması müşahidə olunur. İnvaziyalardan hansı daha uyğundur?
A) Trixesefalyoz
B) Himenolipidoz
C) Difillobotrioz
D) Teniarenxoz
E) Tenioz

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

357) Bağırsaq keçməməzliyinin səbəbi aşağıdakılardan hansı ola bilər?
A) Enterobioz
B) Trixosefalyoz
C) Stronqiloidoz
D) Ankilostomidoz
E) Askaridoz

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

358) Ağciyərləri nə zədələmir?

UNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

A) Askaridoz
B) Toksokaroz
C) Exinokokkoz
D) Enterobioz
E) Paraqonimoz

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

359) Aşağıda göstərilən preparatlardan hansının tətbiqi amöbiazın müalicəsində əsil inqilab oldu?
A) levomisetin
B) trixopol
C) penisillin
D) duz turşulu ementin
E) tetrasiklin

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

360) Xroniki gedişli hansı infeksion xəstəlik üçün generalizə olunmuş limfoadenopatiya xarakter deyil?

A) Brusellyoz
B) Toksoplazmoz
C) HİV - infeksiya
D) Xroniki hepatit B
E) Xroniki hepatit C

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, "Nasir", 2007, Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990

361) Kriptosporidiozun xüsusiyyəti deyil:

A) Yalnız insanlar xəstələnirlər, heyvanlar ancaq infeksiya mənbəyidir
B) Bağırsağı örtən epitelin xovlarının atrofiyasına səbəb olur
C) İnsan parazitin sistlərinin həzm traktına daxil olması zamanı yoluxur
D) Törədici - parazitik ibtidaidir
E) İnsan orqanizmində bağırsağın selikli qişasında enterositlərin daxilində lokalizasiya olunur

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

362) Aşağıdakılardan hansı teniozun xüsusiyyəti deyil?

SUSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

A) Törədici insan orqanizmində cinsi yetişkən və süfrə mərhələlərində parazitlik edə bilir
B) Parazitin süfrələri anusdan aktiv xaricə çıxır
C) İnsanın yoluxması çiy donuz ətini qəbul etdikdə baş verir
D) Sistiserkoz donuz soliterinin yumurtalarının mədəyə düşməsi nəticəsində inkişaf edir
E) Böyük yaşlı helmint nazik bağırsaqda illərlə parazitlik edir

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

363) Trixinellyozun diaqnostikası üçün nümunə hardan götürülmür?

A) Başın tüklü hissəsindən
B) Trapesəbənzər əzələdən
C) Kürəyin enli əzələsindən
D) Baldır əzələsindən
E) Deltayabənzər əzələdən

Ədəbiyyat: Е. П. Шувалова. Инфекционные болезни. Москва, Медицина, 1990, Н. Д. Ющук, Ю. Я. Венгеров. Инфекционные болезни: национальное руководство. Москва, ГЭОТАР - Медиа, 2009

364) Böyük yaşlı uşaqlarda və böyüklərdə urogenital xlamidioza səciyyəvi deyil:

A) Sonsuzluq, uşaqlıqdan kənar hamiləlik, ölü döl, qarın boşluğunun bitişmələri, perihepatit
B) Meningit
C) Oftalmoxlamidioz
D) Artrit, nodoz eritema, Reyter sindromu, endokardit
E) Faringit, pnevmoniya

Ədəbiyyat: N. N. Əliyev, F. C. Tağızadə. İnfektologiya. Rəhbərlik. Bakı, “Nasir”, 2007, В. Ф. Учайкин. Руководство по инфекционным болезням у детей. ГЭОТАР - МЕДИА 1998

Hemorragik qızdırmalar

365) Ku - qızdırmasının retrospektiv diaqnostikası üçün hansı müayinə üsulu daha əlverişlidir?
A) bioloji sınaq
B) immunferment analiz üsulu

SDK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

C) C burnetii allergeni ilə dəri daxili allergik sınaq
D) komplementin birləşmə reaksiyası
E) mikroaqlutinasiya reaksiyası

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шлоссберг Д., Шульман И. Дифференциальная диагностика инфекционных болезней. С.-Пб., 1999 – 306 с.

366) «Pik simptomu» hansı infeksiya zamanı rast gəlir?
A) Flebotom qızdırması
B) Sarı qızdırma
C) Laym borreliozu
D) Denge qızdırması
E) Ku-qızdırması

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

367) Əl barmaqları və dabanlarda iri lövhəli qabıqlanma aşağıdakı hansı infeksiya üçün səciyyəvidir?
A) qızılca
B) skarlatina
C) difteriya
D) su çiçəyi
E) məxmərək

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

368) Flebotom qızdırması zamanı Taussiq simptomu nədir?
A) diplopiya
B) göz almalarına təzyiq etdikdə və ya göz qapağını qaldırdıqda ağrı
C) ptoz
D) midriaz
E) göz almalarını sağa və sola hərəkət etdirdikdə ağrı

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

369) Yayılmış nekroz şəklində «Kaunsilmen cismcikləri» sarı qıdırma zamanı hansı orqanda qeydə alınır?
A) mədənin divarında
B) qaraciyərdə
C) ağciyər
D) böyrəklərdə
E) dalaq

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

SINAQ AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

370) Aşağıdakılardan hansı hemorragik qızdırmalara aiddir?
A) kriptosporidaz
B) malyariya
C) sarı qızdırma
D) manqo
E) leptospiroz

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

371) Hemorragik qızdırmaları hansı mikroorqanizmlər törədir?
A) viruslar
B) patogen göbələklər
C) prionlar
D) parazitlər
E) bakteriyalar

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

372) Böyrək sindromu ilə keçən hemorragik qızdırmanı hansı xəstəliklərdən fərqləndirmək lazımdır?
A) tulyaremiya
B) listerioz
C) qlomerulonefrit
D) virus hepatitləri
E) leptospiroz

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

373) Respublikamızda hemorragik qızdırmalardan hansı qeydə alınır?
A) Qərbi Nil qızdırması
B) Pappataçi qızdırması
C) Marğurq qızdırması
D) Ebol qızdırması
E) Ku-qızdırması

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

374) Böyrək sindromlu hemorragik qızdırmanın hansı dövrləri var?
A) intoksikasiya və meningizm
B) intoksikasiya və hərəki pozğunluqlar
C) intoksikasiya və dispepsiya
D) oliquriya, poliuriya
E) intoksikasiya və sarılıq

SİNAQ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

375) Sarı qızdırmanın başlanğıc əlamətləri hansıdır?
A) qarında güclü ağrı, ishal
B) yüksək qızdırma, oyanıqlıq
C) hərarət, səpgilər, ishal
D) sarılıq, qanaxmalar
E) hərarət, sarılıq

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

376) Sarı qızdırmanın qızğın dövrünün əlamətləri hansıdır?
A) qızdırma, qusma, ishal
B) qızdırma, titrətmə, üşütmə
C) sarılıq, qanaxmalar, taxikardiya
D) qızdırma, səpgi, sarılıq
E) hemorragiyalar, ishal, sarılıq

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

377) Omsk hemorragik qızdırmasından residiv olurmu?
A) residiv olur
B) tez-tez olur
C) nadir hallarda olur
D) xarakterik deyil
E) residiv olmur

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.
Шувалова Е.П. Инфекционные болезни. М., Медицина, 1990 – 558 с.

378) Papataçi qızdırmasının müalicəsinə aşağıdakılardan hansı aid deyildir?
A) ürək-damar preparatları
B) spesifik antibiotikoterapiya
C) antidepressantlar
D) ağrıkəsicilər
E) ciddi yataq rejimi, çoxlu maye

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

379) Papataçi qızdırması zamanı aşağıdakılardan hansı olmur?
A) nevroloji əlamətlər
B) milçək dişləyən yerdə infiltrat
C) qanlı ishal

TUŞ AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

D) leykopoezin ləngiməsi
E) yüksək temperatur

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

380) Papataçi qızdırmasının hansı xəstəliklərlə diferensə etmək lazımdır?
A) vərəm ilə
B) malyariya ilə
C) difteriya ilə
D) tetanus ilə
E) leyşmanioz ilə

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

381) Papataçi qızdırması zamanı hərarət neçə gün davam edir?
A) 12-24 saat
B) 1 həftə
C) 20 gün
D) 3-4 gün
E) 2 həftə

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

382) Papataçi qızdırmasında əsas simptom hansıdır?
A) Kaposi simptomu
B) ənsə əzələlərinin rigidliyi simptomu
C) Ptoz
D) papulyoz səpgilər
E) Taussiq simptomu

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.

383) Hemorragik qızdırmanın nəticəsi deyil:

A) Xroniki interstisinal nefropatiya
B) Postinfeksion miokardiodistrofiya
C) İnfeksion-toksik şok
D) İnfeksiyadan sonrakı anemiya
E) Xroniki pielonefrit

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.; Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

384) Böyrək sindromlu hemorragik qıdırma zamanı xəstəliyin qızğın dövründə periferik qanın müayinəsində hansılar müəyyən olunur?

SSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

A) Bütün sadalananlar həqiqətə uyğun deyil
B) Leykositlərin sayının artması
C) Eritrositlərin və hemoqlobinin miqdarının artması
D) Sola meyilliliklə neytrofilyoz, EÇS-in artması
E) Bütün sadalananlar

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.; Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

385) Hemorragik qızdırma zamanı oliqouriyanın proqressivləşməsi fazasında sidikdə aşağıdakılardan hansılar müəyyən edilir?

A) Bütün göstərilən dəyişikliklər həqiqətə uyğun deyil
B) Eritrositlər və leykositlər
C) İzohipostenuriya, proteinuriya
D) Böyrək epiteli hüceyrələri, danəli, fibrin silindrlər
E) Bütün göstərilən dəyişikliklər

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.; Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

386) Hemorragik qızdırma zamanı xəstə hansı şərtlərin əməl olmasından sonra evə yazılır?

A) Xəstəliyin klinik əlamətlərinin itməsindən sonra
B) Qanın və sidiyin morfoloji və biokimyəvi göstəriciləri normallaşdıqdan sonra
C) Bütün cavablar dogrudur
D) Ağır gedişli formalarda xəstəliyin başlanğıcından 3-4 həftədən tez olmayaraq
E) İzohipostenuruya və poliuriya evə yazılmaq üçün əksgöstəriş deyil

Ədəbiyyat: N.N.Əliyev. İnfektologiya. Rəhbərlik, Bakı, 2007, 590 səh.; Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

387) Sarı qızdırmanın törədicisi üçün aşağıdakılardan hansı səciyyəvi deyil?

A) Yoluxmuş ötürücü ağcaqanadın bədənində 4 həftəyədək sağ qalır
B) Pantropluq, xüsusən vissero- və neyrotrop xüsusiyyətinə malikdir
C) Sarı qızdırmanın törədicisi 12 - 27 nm ölçülü filtrasiya edən virusdur
D) Xarici mühitdə davamlıdır
E) Arboviruslara aid olub RNT tərkiblidir

SİNİF AZİLƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

Ədəbiyyat: Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

388) Sarı qızdırma üçün xarakter epidemioloji məlumatlara aid olmayan hansıdır?

A) Cəngəllik sarı qızdırması heyvan - ağcaqanad - heyvan tsikli üzrə ötürülür
B) Şəhər sarı qızdırması antroponoz transmissiv xəstəlikdir
C) Sarı qızdırmanın endemik (cəngəllik) və epidemik (şəhər) olmaqla 2 epidemioloji variantı mövcuddur
D) Tropik qurşağı zonası yayılma arealı ilə təbii - ocaqlı xəstəlikdir
E) Sarı qızdırmaya həssaslıq kiçikdir

Ədəbiyyat: Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

389) Aşağıdakılardan hansı sarı qızdırma zamanı infeksiya mənbəyi və ötürücüsü deyil?

A) Xəstə insan inkubasion dövrün sonunda və xəstəliyin ilk 3 - 4 günündə
B) Ağcaqanadlar
C) Cəngəllik primatları
D) Gəmiricilər, kirpi
E) Quşlar

Ədəbiyyat: Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

390) Sarı qızdırmanın patogenezində xüsusi əhəmiyyət kəsb etmiyən hansı amildir?

A) Virusemiya
B) Ağcaqanadın dişləməsindən sonra dəridən virusun daxil olması
C) Virusun regionar limfa düyünlərinə limfogen daşınması
D) Toksinemiya
E) Daxili orqanların kapillyarlarının endotelinin zədələnməsi və qanın səpələnmiş damardaxili laxtalanmasının inkişafı

Ədəbiyyat: Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

391) Sarı qızdırma zamanı patoloqoanatomik dəyişikliklərə hansılar aiddir?

A) Daxili orqanların hemorragik diatezi
B) Böyrəklərin yumaqcıq və kanalcıq aparatının zədələnməsi

SUSKAZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

C) Qaraciyərin piy distrofiyasının və eozinofil nekrozunun(Kaunsilmen cisimcikləri) olması
D) Sarılıq
E) Bütün sadalananlar

Ədəbiyyat: Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

392) Sarı qızdırma zamanı hemorragik sindroma hansı aid deyil?

A) Mədə-bağırsaq qanaxması
B) Dəri və selikli qişalarda polimorf səpkilər
C) Burun qanaxması
D) Hematuriya
E) Trombositopeniya

Ədəbiyyat: Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

393) Sarı qızdırma zamanı qaraciyər və böyrəklərin zədələnməsinə nə xasdır?

A) Xəstəliyin fəsadıdır
B) Bütün xəstələrdə müşahidə olunur
C) Çox vaxt xəstəliyin 1-2-ci günü inkişaf edir
D) Qızdırmanın ikinci dalğasında inkişaf edir
E) Qaraciyər və böyrəklərin damarlarının endotelinə virusun tropizmi ilə əlaqədar deyil

Ədəbiyyat: Н.Д.Ющук, Ю.Я.Венгеров. Инфекционные болезни: национальное руководство. М.: ГЭОТАР – Медиа, 2009.- 1056 с.

394) Aşağıdakılardan hansı sarı qızdırmanın klinik - epidemioloji diaqnozunu əsaslandırmır?

A) Hemorragik diatez əlamətləri
B) Epidemik ocaq
C) Qaraciyər və böyrək zədələnməsi
D) Nəbz dəyişikliyi
E) Tipik iki dalğalı temperatur əyrisi

